

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 112 (23.023)

*14 iyun 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyasına işgüzar səfərə gedib.

İyunun 13-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısını salamlayaraq deyib ki, bizim münasibətlərimiz inkişaf edir, özü də çox uğurla inkişaf edir. Ötən il ərzində bizdə əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə daha 19 faizə yaxın olub. Yəni, bu, çox yaxşı artım tempidir və biz bunu dəstəkləməliyik.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, bizim qarşılıqlı siyasi fəaliyyətimiz çox yüksək səviyyədədir. Biz etibarlı dostlar və tərəfdaşlar, strateji tərəfdaşlarıq. Biz "Şimal-Cənub" layihəsinin həyata keçirilməsinin artıq konkret nəticələrini görürük. Artıq Azərbaycan vasitəsilə Rusiyadan yükdaşımalar artır, bu da bizim fəaliyyətimizin müsbət nəticəsidir. Hesab edirəm ki, bütün sahələrdə, humanitar sahədə bizim münasibətlərimiz, ümumiyyətlə, nümunəvidir.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Moldovanın ölkəmizdəki səfiri ilə görüşüb



İyunun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri George Leuka ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış və onu Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən George Leuka Naxçıvanın tarixi və müasir inkişafı haqqında məlumata malik olduğunu bildirmişdir. Qonaq muxtar respublikaya səfərinin əməkdaşlıq imkanlarının müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını və bu sahədə səylərini əsirgəməyəcəyini qeyd etmişdir.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdən, muxtar respublikada ərzaq və enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərdən danışmışdır. Naxçıvan Muxtar Respublikası ilə Moldova arasında əməkdaşlığın inkişaf istiqamətlərini diqqətə çatdıran Ali Məclisin Sədri iqtisadi-ticarət, kənd təsərrüfatı, sənaye, turizm və təhsil sahələrində, eləcə də iş adamları arasında qarşılıqlı əlaqələrin inkişafı üçün potensialın olduğunu qeyd etmiş, səfirə fəaliyyətində uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib



***Milli Qurtuluş Gününün 25 illiyi münasibətilə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının keçirdiyi tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev mövzu ilə bağlı məruzə edib.***

Məruzəçi Milli Qurtuluş Gününün ölkəmizin tarixinə qızıl hərflərlə yazıldığını bildirib, 1990-cı illərin əvvəllərində hökm sürən olduqca mürəkkəb və gərgin şəraitdə yenicə əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsi, ulu öndər Heydər Əliyevin Azərbaycanın qədim dövlətçilik ənənələrinin bərpa olunması istiqamətində göstərdiyi misilsiz xidmətlərdən söz açıb.

Vurğulanıb ki, Azərbaycanın taleyinin həll olunduğu ən ağır və faciəli günlərdə dahi rəhbərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması ölkəmizin tarixində dönüş nöqtəsi oldu. Məhz həmin gündən Azərbaycanın başı üzərini almış qara buludlar dağılmağa, respublikamız işıqlı sabahlara doğru inamla addımlamağa başladı. Beləliklə, ulu öndərin misilsiz fəaliyyəti nəticəsində respublikamız hərtərəfli inkişaf və tərəqqi yoluna qədəm qoydu. Ümummilli lider Azərbaycanı dünyaya tanıtdı, onu beynəlxalq aləmdə nüfuz sahibi etdi.

Qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlətimizin milli maraqlarına xidmət edən daxili və xarici siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır. Ölkəmiz yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib.

Təbii ki, bütün bu uğurların qazanılması cəmi 27 illik müstəqillik tarixi olan bir dövlət üçün böyük qələbədir.

Məruzə ətrafında çıxışlar olub. Çıxışlarda bildirilib ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan da Milli Qurtuluşun işığında böyük və şərəfli yol keçib. Muxtar respublikamızda ardıcıl olaraq həyata keçirilən genişmiqyaslı quruculuq işləri, əhəmiyyətli layihələr onun sosial-iqtisadi inkişafını təmin edib. Bunu Şərur rayonunun timsalında da aydın görmək mümkündür. Aparılan kompleks quruculuq işləri nəticəsində yeni görkəm alan Şərur şəhəri və rayonun kənd yaşayış məntəqələri müasirliyə qovuşub.

Diqqətə çatdırılıb ki, əgər 1993-cü ilin həmin möhtəşəm qayıdışı baş verməsəydi, bu gün biz sivil, demokratik və çiçəklənən Azərbaycandan danışa bilməzdik. Bütün bunlar görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəsi, Vətəni qarşısında göstərdiyi misilsiz xidmətlərinin nəticəsidir.

Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı rayon Mədəniyyət Evində 15 İyun – Milli Qurtuluş Gününə hər olunmuş tədbir keçirib. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədovun məruzəsi dinlənilib. Məruzəçi bildirib ki, 1993-cü ilin iyun ayında xalqımızın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev dövlət müstəqilliyimizin itirilməsinin, siyasi qarşıdurmalar nəticəsində vətəndaş müharibəsinin yaranmasının və ölkənin parçalanmasının qarşısını alaraq müstəqil Azərbaycan Respublikasının memarına çevrilmişdir. Ulu öndərimiz fəaliyyətində daim ümumxalq mənafeyindən çıxış etmiş və hakimiyyətdə olduğu hər iki dövrdə mənalı həyatını və siyasi fəaliyyətini bu amala həsr etmişdir.



İsa Məmmədov deyib ki, xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun böyük əhəmiyyətə malik bir gündür. Həmin gün Azərbaycan xalqı məhv olmaq, dövlətimiz tarix səhnəsindən silinmək təhlükəsindən xilas oldu. Bu qurtuluşu və nicatı isə xalqına bəxş edən ulu öndərimiz, dahi azərbaycanlı Heydər Əliyevdir.

Təşkilatın sədri ümummilli liderin siyasi kursunun bu gün dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən böyük əzm və uğurla davam etdirildiyini bildirib. Qeyd olunub ki, dahi şəxsiyyətin müəyyən etdiyi siyasi xəttə sadiqlik Naxçıvan Muxtar Respublikasını da yeni inkişaf mərhələsinə yüksəldib.

Məruzə ətrafında rayon İcra Hakimiyyəti başçısının müavini, şura üzvü Nihal Məmmədov, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli, Nehrəm kənd sahə xəstəxanasının baş həkimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Hüseyn Niftəliyev və digərləri çıxış ediblər.

Sonda tədbir bədii hissə ilə davam edib, Milli Qurtuluş Gününə həsr olunmuş sənədli filmə baxış olub. Məktəblilərin ifasında ümummilli liderə həsr olunmuş şeir və mahnılar səslənib.

* * *

***15 İyun – Milli Qurtuluş Gününün 25 illiyi ilə əlaqədar Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının keçirdiyi tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, təşkilatın sədri Qadir İbrahimovun məruzəsi dinlənilib.***



Bildirilib ki, 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlanan qurtuluş mübarizəsi özünün yeni – həlledici mərhələsinə qədəm qoydu. Müstəqilliyimizi, dövlətçiliyimizi qorumaq yolunda ümummilli liderimiz ictimai-siyasi sabitliyin pozulduğu dövrdə, düşmən qüvvələrin törətdiyi təxribatların artdığı bir zamanda hər cür çətinliyə sinə gərərək Azərbaycanda vətəndaş müharibəsinin qarşısını aldı. Bundan dərhal sonra hakimiyyət boşluğu aradan qaldırıldı, separatçı və cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Milli Ordumuz formalaşdı, atəşkəs haqqında razılaşma əldə edildi. Müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu. Bazar iqtisadiyyatı formalaşmağa başladı. Torpaq və aqrar islahatlar keçirildi, sahibkarlıq inkişaf etdirildi. Ümummilli liderimiz Heydər Əliyevin qurucusu və memarı olduğu müstəqil Azərbaycan dövləti Onun rəhbərliyi ilə qısa zaman kəsiyində beynəlxalq aləmdə tanınan dövlətə çevrildi.

Qadir İbrahimov diqqətə çatdırıb ki, əsası ulu öndərimiz tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası, quruculuq tədbirləri bugünkü inkişaf etmiş Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sədaqət və əzmkarlıqla həyata keçirilir. Muxtar respublikamızın hər bir bölgəsində olduğu kimi, Culfa rayonunda da quruculuq, abadlıq, yaşıllaşdırma işləri geniş vüsət alıb, yeni parklar salınıb, yollar abadlaşdırılıb. Culfa şəhəri və kəndlərin siması tamamilə dəyişir, yeniləşir, müasirləşir, şəhər və kənd arasında fərq aradan qaldırılır.

Tədbirdə təşkilatın şura üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fərəc Fərəcov, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Saltaq kənd ərazi ilk təşkilatının sədri Mahir Əsgərov çıxış ediblər.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib



Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı tərəfindən keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyevanın məruzəsi dinlənilib. Qeyd olunub ki, bu il Azərbaycan böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik olan Milli Qurtuluş Gününün 25-ci ildönümünü qeyd edir. Vətənini, xalqını, dövlətini sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələrin canlı şahidi olan insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə müstəqil Azərbaycanın gələcək inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və ona arxadayaq olan böyük insan – ulu öndər Heydər Əliyevdir.

Bildirilib ki, ötən əsrin sonlarında Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyasi vəziyyət, vətəndaş qarşıdurması, torpaqlarımızın bir-birinin ardınca işğal edilməsi ölkəmizi məhv olmaq, dağılmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ölkəmizi xaos və hərc-mərclikdən, parçalanmaq təhlükəsindən, vətəndaş müharibəsindən xilas etdi. Qısa vaxtda yaradılan siyasi sabitlik nəticəsində dahi rəhbər bütün sahələrdə respublikanın sosial-iqtisadi inkişaf konsepsiyasını hazırlayıb həyata keçirdi. Qonşu ölkələrlə münasibətlər bərpa olundu, dünyanın inkişaf etmiş ölkələri ilə xalqımızın və dövlətimizin milli maraqlarına uyğun diplomatik əlaqələr quruldu.

Diqqətə çatdırılıb ki, Azərbaycan ötən 25 il ərzində böyük inkişaf yolu keçib. Qazanılan bütün nailiyyətlər ulu öndərin müəyyənləşdirdiyi siyasi kursun ölkə başçısı tərəfindən uğurla davam etdirilməsi nəticəsində əldə edilib. Görkəmli dövlət xadimi Heydər Əliyevin inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, müasirləşən dövlətinə çevrilib.

Təşkilat sədri bildirib ki, Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında inkişafın keyfiyyətcə yeni və uğurlu mərhələsinə qədəm qoyub. Bu uğurlar sosial-mədəni həyatın bütün sahələrində dinamik inkişafa təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Naxçıvan bu gün mühüm beynəlxalq tədbirlərin, zirvə görüşlərinin keçirildiyi, mötəbər idman yarışlarının təşkil edildiyi bir məkandır. Məhz bu inkişafın sayəsində Naxçıvan bu gün İslam Mədəniyyətinin, həmçinin ölkəmizin Gənclər Paytaxtı kimi mühüm statusları daşıyır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Şura üzvləri Hacıraddin Mehbalıyev, Tahir Məmmədov, partiyanın gənc üzvü Türkan Cəfərli çıxış ediblər.

Sonra bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

Sonda tədbir iştirakçıları Qurtuluş Gününə həsr olunmuş filmə baxıblar.



Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatında Milli Qurtuluş Günü münasibətilə keçirilən tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov açıb. O, müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 15 iyundan başlayaraq müstəqilliyimizin qorunması istiqamətində görülən işlərdən danışıb. Vurğulanıb ki, böyük şəxsiyyət Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən xilas olub. Ötən əsrin 90-cı illərində Azərbaycan xalqının başı üstünü almış təhlükənin aradan qaldırılmasına, dövlətçiliyimizin xilasına və bugünkü sabitlik, əmin-amanlıq şəraitində yaşamağımıza görə Milli Qurtuluş Gününə borcluyuq. Bu gün həm də ona görə müqəddəsdir ki, həmin tarix ulu öndərin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır.

Bildirilib ki, 1993-cü ilin iyununda Azərbaycan "ölüm və ya olum" dilemması qarşısında qalmışdı. Məhz o zaman dahi rəhbər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlanan qurtuluş mübarizəsi özünün yeni həlledici mərhələsinə qədəm qoydu. Müdrik siyasətçi vaxtilə qurub-yaratdığı Azərbaycanda vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı.

Tədbirdə Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının şura üzvü, Badamlı qəsəbə tam orta məktəbinin direktoru Hilal Paşayev, Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin ərazi ilk təşkilatının sədri Günel Əliyeva, rayon təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin üzvü Aytac Eylazova çıxış ediblər.

* * *

***Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə "Qurtuluşdan başlanan yol" mövzusunda tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov bildirib ki, xalqda milli heysiyyəti, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət tələb edən mühüm tarixi addımlar ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə atılıb.

1993-cü ilin iyununda – son dərəcə mürəkkəb bir dövrdə xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin etməklə, vətəndaş qarşıdurmasını aradan qaldırmaqla, ölkəmizi parçalanmaq təhlükəsindən hifz etməklə, sözün əsl mənasında, milli qurtuluşu təmin etdi.



Arif Qasımov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ölkəmizin çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Məhz bu qayıdış sayəsində Azərbaycan üçün çoxdan hazırlanan məkrli planların qarşısına möhkəm sipər çəkildi, siyasi varlığımıza doğru uzanan xain əllər kəsildi, dövlətimizin müstəqilliyi əbədi, dönməz, sarsılmaz oldu.

Təşkilatın sədri ümummilli liderin siyasi kursunun bu gün dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini bildirib. Qeyd olunub ki, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası son illər əsrə bərabər inkişaf yolu keçib. Bu yol Qurtuluşdan başlanan yoldur.

Tədbirdə çıxış edən partiya fəalları ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən danışıblar.

Sonda bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub, rayon məktəbliləri tərəfindən Milli Qurtuluş Gününə həsr edilən şeirlər bədii qiraət edilib.

**Xəbərlər şöbəsi**

# İnteraktiv dərs təşkil edilib



Milli Qurtuluş Günü münasibətilə Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın 210 ümumtəhsil məktəbi və Heydər Əliyev adına Hərbi Lisey arasında interaktiv dərs təşkil olunub. Naxçıvan Muxtar Respublikası Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirliklərinin təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda keçilən açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev əvvəlcə muzey barədə şagirdlərə ətraflı məlumat verib.

Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla yaradılıb. Muzey həmin ilin may ayının 10-dan fəaliyyət göstərir.

Qeyd olunub ki, Heydər Əliyev Muzeyi müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı olan ulu öndərimizin ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, tədqiq və təbliğini həyata keçirən elmi-tədqiqat müəssisəsidir.

"Muzey fondunda ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 711 ədəd eksponat toplanıb", – deyən Ramil Orucəliyev ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, keçdiyi şərəfli həyat yolu ilə bağlı muzeydə qorunan nadir tarixi sənədlər, elmi nəşrlər və xatirə əşyaları haqqında məlumat verib.

Muzeyin direktoru qeyd edib ki, xalqımız tarixin ən sərt, çətin sınaqlarından keçərək milli dövlətçilik ənənələri əxz edib, bu ənənələri məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında vahid sistem halına salaraq özünütəsdiq imkanı qazanıb. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan 1993-cü ilin iyun ayına qədərki müddətdə böhranlar, xaos və çaxnaşmalarla qarşılaşıb. AXC-Müsavat iqtidarının hakimiyyəti dövründə idarəetmədə buraxılan kobud səhvlər, yaranmış ağır sosial-iqtisadi gərginlik və hakimiyyət davası ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdu. Cəbhədəki məğlubiyyətlər, torpaqların itirilməsi yeni-yeni faciələrlə nəticələnməsinə səbəb olmuşdu. Gəncədə 1993-cü ilin iyun ayında baş verən hadisələr vəziyyəti daha da ağırlaşdırmışdı. Məhz belə bir vaxtda, xalqın çətin günündə onu bu bəlalardan xilas edə biləcək tarixi bir şəxsiyyətin, müdrik siyasi xadimin hakimiyyətə gəlişi labüd idi. Belə bir vəziyyətdə Azərbaycan xalqı haqlı olaraq nicat yolunu ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasında gördü. Xalqının çağırışına biganə qala bilməyən ulu öndərin yenidən rəhbərliyə gəlməsi insanların qəlbində sönmüş müstəqillik arzularını alovlandırdı.



*Naxçıvan Qızlar Liseyi*



*Şərur Şəhər 1 nömrəli tam orta məktəb*

Vurğulanıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın istək və tələbi ilə 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra – iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi xalqımızın ulu öndərin xilaskarlıq missiyasına olan ümid və inamının göstəricisi idi.

Ramil Orucəliyev şagirdlərin nəzərinə çatdırıb ki, ötən dövr ərzində ölkəmizin nail olduğu hərtərəfli inkişafı muxtar respublikamızın simasında daha aydın görmək mümkündür. Milli Qurtuluş tarixindən bu günə kimi böyük və şərəfli yol keçən qədim diyarımızda cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatların, dövlət proqramlarının həyata keçirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası bu gün sürətlə inkişaf edən müasir bir diyara çevrilib. İndi hər kəs Milli Qurtuluşun bəhrələrini görür, ulu öndər Heydər Əliyevin bu gün də uğurla davam etdirilən dövlətçilik siyasətini, quruculuq missiyasını müdafiə edir, ümummilli liderin yoluna sədaqət göstərirlər. Çünki bugünkü firavan həyatımızın təməli məhz görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulub.

**✍ Gülcamal TAHİROVA**

# Heydər Əliyev Universitetinin 223-cü məşğələsi olub



Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin 223-cü məşğələsi keçirilib. "Qurtuluşdan başlanan tərəqqi yolu" mövzusunda məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, məhz Azərbaycanın azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi həmin tarixi məqamda ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtmaqla müstəqilliyimizi məhv olmaqdan xilas edib. Həmin vaxtdan bu günə qədər Azərbaycan xalqı bu tarixi dövlətimizin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır.

"Milli qurtuluşumuzun zəfər yürüşü" adlı məruzəsində tədris-tərbiyə işləri üzrə prorektor, dosent Rafiq Rəhimov ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrün böyük quruculuq, inkişaf, sabitlik və tərəqqi illəri kimi tarixə yazıldığını vurğulayıb. Qeyd olunub ki, ən çətin məqamlarda xalqının köməyinə çatan, Azərbaycanı məhv olmaq, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsindən xilas edən dahi rəhbərin mənalı ömür yolu xalq və Vətən naminə fəaliyyətə həsr olunub.

Diqqətə çatdırılıb ki, bu gün ulu öndər Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da davamlı inkişaf yolundadır. Ümummilli liderin ideyalarına sədaqət muxtar respublikanı hərtərəfli inkişafa qovuşdurub. Bütün bunlar isə dövlət müstəqilliyimizin möhkəmləndirilməsinin təməlinin qoyulduğu Milli Qurtuluş Gününün bəhrələridir.

**Səadət ƏLİYEVA**

# Xalqımızın və dövlətçiliyimizin xilas günü

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.***

Tədbirdə çıxış edən şuranın sədri Sucaxan Novruzov bildirib ki, 15 iyun müasir Azərbaycan tarixinə xalqımızın və dövlətçiliyimizin xilası günü kimi yazılıb. Həmin gün ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdıb, ölkəmizi parçalanmaqdan, xalqımızı qardaş qırğınından xilas edib. Müdrik rəhbər dərin düşüncəsi, uzaqgörən siyasəti ilə Azərbaycanda baş vermiş xaos və anarxiyanın qarşısını alıb, ölkəmizi yeni inkişaf yoluna çıxarıb.

Qeyd edilib ki, ötən müddət ərzində respublikamız tərəqqi yolu keçib. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin səyi nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişafın bəhrələrini muxtar respublikamızda hər bir sahədə görmək mümkündür. Ümummilli liderin müəyyən etdiyi inkişaf və tərəqqi strategiyası, ulu öndərin ideyalarına sədaqət bu qədim diyarın müasirləşməsinə və inkişafına səbəb olub.

Məruzə ətrafında şuranın əməkdaşlarından Səbuhi Hüseynov, Gözəl Qənbərova, Sənan Hüseynov çıxış ediblər.

**✍ Nail ƏSGƏROV**

## Elmi forum keçirilib



*"Naxçıvan" Universitetində "İslam dəyərləri: Ramazan və Qurban bayramları" mövzusunda elmi forum keçirilib.*

AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri çərçivəsində keçirilən forumu giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, muxtar respublikamızda milli-mənəvi dəyərlərimizin qorunması və təbliği daim diqqət mərkəzində saxlanılır, bu sahəyə hərtərəfli dövlət qayğısı göstərilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, multikulturalizmin, tolerantlığın mövcud olduğu ölkəmizdə bu gün təkcə islami dəyərlər təbliğ olunmur, həm də İslam həmrəyliyinin təmin edilməsi istiqamətində tarixi addımlar atılır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması da milli və mənəvi dəyərlərimizin təbliği baxımından yeni imkanlar açır.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev "İslam dininin milli-mənəvi dəyərlərimizdən olan bayramlarımıza verdiyi dəyər" mövzusunda çıxış edərək qeyd edib ki, İslam dini başqa dinlərdən fərqli olaraq bütün bəşəriyyət üçün meydana gəlmişdir. İslam humanist bir din kimi yayıldığı ərazidəki xalqların adət-ənənəsinə böyük hörmət göstərmişdir. Əgər həmin adət və ənənələrdə dinə zidd heç bir ünsür yoxdursa, İslam dini onu rədd etməmiş, əksinə, qoruyaraq daha da inkişaf etməsinə kömək olmuşdur. Bu səbəbdən İslam dini yayıldıqdan sonrakı illərdə də Azərbaycanda dini bayramlarımız olan Qurban və Ramazan bayramları ilə yanaşı, Xızır Nəbi və Novruz bayramları da həmişə yüksək şəkildə qeyd olunub.

Vurğulanıb ki, İslam düşüncəsinə görə, bayram, hər şeydən əvvəl, sosial mahiyyəti olan bir məfhumdur. Bayram – insanlar arasında mehribanlıq və sevgi yaradan, qohumlar arasındakı bağlılığı təmin edən, küsülüləri barışdıran, könülləri sevindirən, kimsəsizlərə ümid verən sosial hadisədir.

AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli "Qurban bayramının əhəmiyyəti" mövzusunda çıxış edərək bildirib ki, xalqımızın geniş qeyd etdiyi bayramlar içərisində Qurban bayramının özünəməxsus yeri vardır. İslamın qəbulu ilə məişətimizə daxil olan və sadəcə, qurbanlar kəsilib paylamaqdan ibarət olmayıb xeyirxahlıq, nəciblik, humanist xarakter daşımaqla sosial əhəmiyyət kəsb edən bu bayram əhali tərəfindən bütün dövrlərdə qeyd olunub. Sevindirici haldır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən ona təqvim bayramı statusu verilib. İndi respublikamızda hər il Qurban bayramı günlərində iki gün qeyri-iş günü olur və rahat şəkildə keçirilir. Bayram ölkəmizin hər yerində olduğu kimi, Naxçıvanda da dövlət səviyyəsində geniş miqyasda qeyd olunur.

Forumda Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şuranın sədri Sahib Məmmədovun "İslam həmrəyliyinin dini bayramlarımızda təzahürü", AMEA Naxçıvan Bölməsinin şöbə müdiri Səbuhi İbrahimovun "Naxçıvan alimlərinin əsərlərində Ramazan və Qurban bayramlarına verilən dəyərlər", "Naxçıvan" Universitetinin müəllimi Bəhruz Gülmalıyevin "Ramazan bayramının cəmiyyət üçün faydaları" mövzularında məruzələri dinlənilib, iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, elmi forumda Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura, şəhər və rayon dini icma sədrləri və ali təhsil müəssisələrinin müəllim və tələbələri iştirak ediblər.

**Səbuhi HƏSƏNOV**

## Əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir

Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi 2018-ci ilin may ayında da uğurla davam etdirilib. Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində 384 nömrəlik NGN tipli yeni nəsil avtomat telefon stansiyası istifadəyə verilmişdir. Hesabat ayında 179 yeni telefon nömrəsi istismara verilmiş, muxtar respublika ərazisində, ümumilikdə, 1070 metr fiber-optik kabel xətti çəkilmişdir. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən genişzolaqlı ADSL texnologiyası vasitəsilə 634 yeni abunəçi internetlə təmin olunmuşdur.

Bəhruz Kəngərli Muzeyinin internet səhifəsi hazırlanaraq istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət təşkilatlarının internet səhifələrində isə mətbuat xidməti bölməsi yaradılmış, elektron hökumət portalında yenilənmə işləri davam etdirilmişdir.

Şərur Rayon Mərkəzi Avtomat Telefon Stansiyasına, Culfa Rayon Mərkəzi, Yaycı, Camaldın, Əlincə və Kırna avtomat telefon stansiyalarına yeni avadanlıqlar quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2018-ci ilin may ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmış, 11 milyon 218 min 568 manat pensiyaçıların hesabına köçürülmüşdür. Hesabat ayında fondun gəlirləri 4 milyon 341 min manat proqnoza qarşı 6 milyon 121 min 190 manat həcmində yerinə yetirilmişdir. Həmçinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 138 vətəndaşa əmək pensiyası təyin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2018-ci il 20 aprel tarixli Sərəncamına uyğun olaraq muxtar respublika üzrə 923 nəfərə birdəfəlik maddi yardım ödənilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Mədəniyyət sahəsində qarşıya qoyulan vəzifələr yerinə yetirilir

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi may ayında öz fəaliyyətini nazirliyin iş planına uyğun qurmuş, bu dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılmışdır.

May ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə silsilə tədbirlər keçirilmişdir. Belə ki, Bursa Dövlət Simfonik Orkestri ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar geniş konsert proqramı ilə şəhərimizin qonağı olmuş, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin muxtar respublika ifaçılıq, rəsm, inşa yazı müsabiqələrinin yekun konserti, Naxçıvan Dövlət Filarmoniyasının yeni yaradılan Simfonik Orkestrinin Heydər Əliyev Muzeyinin qarşısında konserti olmuşdur. Həmçinin istedadlı tələbə və şagirdlərin solo konsertləri təşkil edilmiş, mahnı müsabiqəsi keçirilmiş və qaliblər mükafatlandırılmışdır.

Hesabat dövründə muzeyləri 21 mindən çoxu əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 64 mindən çox tamaşaçı ziyarət etmişdir. Bu dövrdə muzeylərə 98 yeni eksponat daxil olmuşdur. Muzey bələdçiləri və əməkdaşları üçün seminar-treninq, dəyirmi masalar keçirilmiş, təcrübə məşğələləri, distant və açıq dərslər davam etdirilmişdir.

Bu dövrdə muxtar respublikadakı kitabxanalarda, ümumilikdə, 53 tədbir keçirilmiş, 35 sərgi açılmışdır. Kitabxanalara 7 adda 1358 kitab verilmiş, yeni oxucu gəlişi 192, müraciət edən oxucuların sayı isə 11 min 202 nəfər olmuşdur.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında bu sənət ocağının 135 illiyi qeyd olunmuş və Əli Əmirlinin "Əli və Nino" tamaşası geniş ictimaiyyətə təqdim edilmiş, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı repertuarında olan tamaşaları uşaq və məktəblilərə göstərmiş, Babək Rayon Xalq Teatrı İsi Məlikzadənin "Subaylarınızdan görəsiniz" komediyasını, Şərur Rayon Xalq Teatrı Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" tamaşasını nümayiş etdirmişdir.

"Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi tərəfindən bir sıra işlər görülmüş, Şahbuz rayonunun dağ kəndlərində 4 mətbəx və 12 folklor nümunəsi toplanmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Azərxalça" daha bir qədim xalçanı aşkara çıxarıb



"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti (ASC) dünyanın nüfuzlu muzeylərində, şəxsi kolleksiyalarda, eləcə də ölkəmizdə şəxsi kolleksiyalarda saxlanılan qədim və nadir Azərbaycan xalçalarını aşkara çıxarıb ictimaiyyətə təqdim edir. Aşkarlanan qədim və orijinal nümunələrdən biri də Naxçıvan diyarının Şahbuz bölgəsinin Biçənək kəndində 1870-ci ildə toxunmuş xovsuz xalçadır.

"Azərxalça"dan bildirilib ki, xalça Cənubi Afrika Respublikasının Yohannesburq şəhərindəki bir xalça kolleksiyaçısından alınaraq ölkəmizə gətirilib. Xalçanın bu ölkədən əldə edilməsi xalçalarımızın tarixən yayıldığı arealın nə qədər geniş olduğunu göstərir.

Bu növ xovsuz xalçalara xalq arasında "şəddə", "sərəndaz" da deyilir. Xalça üzərində əks olunmuş naxışlar, simvollar, türk tayfalarına məxsus damğalar qədim zamanlardan bu torpaqlarda yaşamış insanların dünyagörüşünü, təbiətə münasibətini, həyat tərzini, adət-ənənəsini dəqiq ifadə edir. Əsas bəzək elementi olaraq Naxçıvan qrupu Azərbaycan xalçalarını səciyyələndirən dəvə karvanının seçilməsi də xalçanın orijinal bədii göstəricilərindən biridir.

Tədqiqatlar göstərir ki, dəvə, ana-bala dəvə, dəvə karvanı təsvirləri olan xovlu və xovsuz xalçalar, xalça məmulatları Naxçıvan bölgəsində daha çox toxunub. Bu təsvirlər bölgədə yaşayan əhalinin ənənəvi təsərrüfat həyatını əks etdirir.

Xalça əldə əyirilmiş yundan hazırlanan, təbii boyalarla boyanan iplərlə toxunub.

Hazırda bir şəxsi kolleksiyada qorunan, ölçüsü 307x172 olan xovsuz xalçanın saxlanma vəziyyəti əladır. İlk baxışdan sənət əsəri təsiri bağışlayan bu qiymətli nümunənin unikallığı həm də onun ki, 140-150 il bundan əvvəl toxunan xovsuz xalçalar nadir hallarda belə salamat qalır.

***AZƏRTAC***

*Naxçıvan dünya mətbuatında*

## "Dünya tufanı"ndan sonra bütün insanlar Naxçıvan haqqında danışırlar

***Muxtar respublikamıza səyahət edən əcnəbi turistlərin sayı artdıqca qədim Nuh yurdu haqqında xarici ölkələrin mətbu orqanlarında da yayımlanan bir-birindən maraqlı səyahət təəssüratlarına rast gəlirik. Ötən ay ABŞ-ın nüfuzlu "Conde Nast" jurnalında dərc olunmuş "Dünya tufanı"ndan sonra bütün insanlar Naxçıvan haqqında danışırlar" sərlövhəli məqalə bu baxımdan diqqəti cəlb edir. Yazı amerikan səyyahı Ken Cenningsin Naxçıvana səfəri zamanı əldə etdiyi məlumatlar əsasında hazırlanıb.***







Öncə eksklav region anlayışı haqqında oxucularına məlumat verən müəllif dünyanın bir çox yerlərində belə ərazilərin mövcudluğu və Azərbaycanın tərkib hissəsi olaraq ərazicə ondan ayrı salınmış Naxçıvan Muxtar Respublikasının, təqribən, ABŞ-ın Delavar ştatı qədər bir əraziyə malik olmasından, həmçinin geostrateji maraqların kəsişmə nöqtəsi kimi Naxçıvanın həmsərhəd olduğu ölkələrdən də ətraflı bəhs edir. Daha sonra məqalədə Naxçıvanın adı "Nuhun ayağının dəydiyi yer" kimi izah edilərək "Dünya tufanı" əfsanəsində olduğu kimi, Nuh Peyğəmbərin gəmisinin dağa toxunaraq dayanması və burada ilk insan məskənlərinin yaranması haqqında oxuculara məlumat verilir. Məqalədə tarixboyu Naxçıvanda müsəlman əhalisinin yaşadığını və İran, Osmanlı və Rusiya arasındakı çəkişmələrdən əziyyət çəkən Naxçıvana çar Rusiyası dövründə başqa ölkələrdən xristian ermənilərin köçürüldüyü və onların da bundan sonra torpaq iddiaları qaldırması da yazılıb. 1918-ci ildə Naxçıvandan imperialist qüvvələrin qovularaq burada Araz-Türk Respublikasının yaradılması və 1920-ci ildən isə muxtar qurum kimi Azərbaycanın ayrılmaz tərkib hissəsinə çevrilməsi də müəllif tərəfindən qeyd olunub.

Məqalənin Naxçıvanın ən yeni tarixindən bəhs edən bölümündə Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında 30-50 kilometrlik bir zolaq kimi yerləşən Ermənistanın Naxçıvana gedən yolları kəsərək blokadaya alması, bunun nəticəsində də region əhalisinin uzun müddət maddi çətinliklər çəkməsi qeyd olunur. Müəllif vurğulayır ki, bu gün Naxçıvanda ənənə halını almış kütləvi ağac əkilməsi də həmin dövrdə soyuqdan donmamaq üçün insanların kəsib yandırdığı ağacların əvəz olunması məqsədi daşıyır.

1994-cü ildə Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə olunduqdan sonra Naxçıvana texnoloji kapital axınının sürətlənməsi, burada orqanik kənd təsərrüfatı, ekoturizmin inkişaf etdirilməsi, yüksək texnoloji islahatların həyata keçirildiyi qeyd olunan məqalədə Naxçıvanda yaşayan vətənpərvər azərbaycanlıların dünya şöhrətli siyasətçi ümummilli lider Heydər Əliyevlə fəxr etdikləri də vurğulanır. Naxçıvanda təhlükəsizliyin ən yüksək səviyyədə olduğu məqalədə əks olunan son fikirlərdəndir.

Qeyd edək ki, "Conde Nast" jurnalı ABŞ-ın "Advance Publications" media qrupuna məxsus 18 jurnaldan biri kimi 1909-cu ildən fəaliyyət göstərir və jurnal 27 sayt, 50-dən artıq mobil əlavəyə, populyar sosial şəbəkələrdə milyonlarla izləyicilərə və Rusiya da daxil olmaqla, dünyanın bütün aparıcı ölkələrində filiallara malikdir.

***Hazırladı:* Əli CABBAROV**

## Muxtar respublikada *“Son zəng”* günü yüksək ovqatla qeyd olunur



***İyun ayının 14-də Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı, daha bir tədris ilinin sonu, buraxılış sinifləri üçün “Son zəng” günüdür.***

Xalqımız hər zaman elm və təhsilin inkişafına böyük önəm verib. Müdriklərimiz, ziyalılarımız cəmiyyətin inkişafını təhsildə görüb, insanların savadlanması, gənclərin elm, bilik öyrənməsi qayğısına qalıblar. Azərbaycanda “Son zəng” gününün hər il böyük sevinc hissi ilə qeyd olunması da təhsilin cəmiyyət həyatında mühüm yer tutmasının göstəricisidir.

Başa vurduğumuz son tədris ilində qazanılan nailiyyətlər də bunu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu təhsil strategiyası bu gün Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində son illər muxtar respublikamızda təhsilin inkişafı üçün hərtərəfli şərait yaradılıb. Həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, ali və orta ixtisas məktəblərinə həm sənəd vermə, həm də tələbə qəbulunun səviyyəsi ilbəil artmaqdadır. Artıq bir neçə ildir ki, sənəd qəbulu internet vasitəsi ilə həyata keçirilir, muxtar respublikamızda bununla bağlı hər cür şərait yaradılıb. Nəticədə, 2018-ci ildə ümumtəhsil məktəblərini bitirən 2803 məzundan 2290 nəfəri, yəni məzunların 81,7 faizi ali məktəblərə sənəd verib. Onların 610-u I, 617-si II, 761-i III, 148-i IV, 154-ü isə V ixtisas qrupunu seçiblər. Sənəd verən məzunların 1228 nəfəri, yəni 53,6 faizi oğlan, 1062 nəfəri, yəni 46,4 faizi qızlardır.

Məlumdur ki, 2018-2019-cu tədris ili üçün ali təhsil müəssisələrinə qəbul imtahanlarının birinci mərhələsi – yaz imtahanları artıq başa çatıb. Ali məktəblərə I-IV ixtisas qrupları üzrə sənəd qəbulu və yaz imtahanları nəticələrinin təhlili göstərir ki, muxtar respublika məktəbliləri imtahanlarda uğur qazanıblar. Belə ki, ali məktəblərə qəbul üçün sənəd vermiş məzunlardan 1363-ü 200-700 intervalında bal toplayıb. 150-200 intervalında bal toplayanlar da əlavə olunduqda 1578-dən çox məzun 150-700 intervalında nəticə göstərərək 2018-2019-cu tədris ili üçün ali məktəblərə qəbul imtahanlarının birinci – yaz imtahanlarında müsabiqə balını toplayıblar. Bu nəticə ayrı-ayrı rayonlar üzrə aşağıdakı kimidir: Naxçıvan şəhəri üzrə 333, Şərur rayonu üzrə 283, Babək rayonu üzrə 257, Ordubad rayonu üzrə 159, Culfa rayonu üzrə 191, Şahbuz rayonu üzrə 76, Kəngərli rayonu üzrə 98, Sədərək rayonu üzrə 35, Təhsil Nazirliyinə birbaşa tabe məktəblər üzrə 146 nəfər müsabiqə balını toplayıb.

Yaz imtahanının nəticəsi göstərir ki, cari il məzunlarından 278-i 500-700 intervalında bal toplayıb.

Məzunlar üçün yeni dövr başlayır. İnanırıq ki, ümumtəhsil məktəblərində aldıqları biliklər həyatda layiqli yer tutmaq üçün onlara kömək edəcəkdir. Bu gün ümumtəhsil məktəblərimizdə yaradılan şəraitə uyğun olaraq təhsilin səviyyəsi yüksək olduğu üçün məzunlarımız ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarında uğurlu nəticələr qazanırlar. Bu isə bir daha belə deməyə əsas verir ki, muxtar respublika təhsili qısa müddət ərzində çox böyük nailiyyətlər əldə edib.

Bu gün muxtar respublikamızda “Son zəng” günü yüksək əhval-ruhiyyə ilə qeyd olunur, təhsil ocaqları ölkəmizin daha da qüdrətlənməsi naminə çalışmaq arzusunda olan, bu arzunu gerçəkləşdirmək üçün ali təhsil almağa tələsən şagirdlərini uğurlayır. Hər ötən təhsil ilini yeni-yeni uğurlarla başa vuran məktəblərimiz daha böyük nailiyyətlər qazanmağa səy göstərir, yaradılan təhsil mühitindən daha səmərəli istifadə etməyə çalışırlar. Bu gün bilik məbədlərində yaradılan şərait, təhsil işçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, bir sözlə, muxtar respublikamızda insan kapitalına böyük önəm verilməsi hər bir valideyndə övladının yaxşı təhsil alacağına, onun gələcəyinin etibarlı əllərdə olduğuna əminlik yaradır.

**Mahir BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Gənclər və idman sahəsində işlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən 2018-ci ilin may ayı ərzində, ümumilikdə, 59 tədbir keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar gənclərin “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüyüşü təşkil olunmuş, lektoriya və açıq dərslər keçilmiş, kitab müzakirələri təşkil edilmiş, sənədli filmlər nümayiş olunmuş, Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar hazırlanmış tədbirlər planına əsasən gənclər arasında intellektual oyunların və digər tədbirlərin keçirilməsi davam etdirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar Naxçıvan şəhərində təşkil olunmuş yürüyüşdə gənclərin və idmançıların iştirakı təmin edilmiş, internet resurslarından düzgün istifadənin təbliğ olunması məqsədilə “Sosial şəbəkələrin müsbət və mənfi xüsusiyyətləri” mövzusunda gənclərlə görüş, “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında isə təmizlik və yaşıllıqlara qulluq aksiyası keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar muxtar respublikada “Naxçıvan – 2018” Beynəlxalq Şahmat Festivalı, kikboksinq və cüdo üzrə Beynəlxalq turnirlər keçirilmiş, “Heydər Əliyev kuboku” uğrunda İlham Əliyev adına Olimpiya-İdman Kompleksində yeniyetmə və gənclər arasında boks, karate-do, kikboksinq, sərbəst güləş üzrə, kişilər arasında voleybol, basketbol, 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında Əyləncəli İdman Oyunları üzrə Naxçıvan Muxtar Respublika turnirləri təşkil olunmuşdur. Keçirilən 15 idman tədbirindən 3-ü beynəlxalq, 12-si muxtar respublika səviyyəli olmuşdur. Bu yarışlarda 1275 idmançı iştirak etmişdir ki, onların da 458-i xarici idmançıdır.

Həmçinin Naxçıvan Muxtar Respublika Stadionunda ümumtəhsil məktəblərinin şagirdləri arasında velosiped, kross, peyntbol və futbol üzrə Naxçıvan Muxtar Respublika turnirləri təşkil olunmuşdur. May ayında idmançılarımız ölkə birinciliklərində 3, beynəlxalq turnirlərdə isə 16 olmaqla, ümumilikdə, 19 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Radio dinləyicilərinin nəzərinə

FM radio yayımlarının koordinasiyası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi və İran İslam Respublikasının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi arasında imzalanmış Protokolun icrası ilə əlaqədar qarşılıqlı maneə təsirlərinin aradan qaldırılması üçün 1 iyun 2018-ci il tarixdən etibarən Duzdağ Radio-Televiziya Verici stansiyasından yayımlanan FM radioları cədvəldə qeyd edilən tezliklərə keçirilmişdir.

| № | Radiolar | Yeni tezlik |
|---|---|---|
| 1. | Naxçıvanın Dövlət Radiosu | 104.1 Mhz |
| 2. | Azərbaycan Milli Radiosu | 98.1 Mhz |
| 3. | İctimai Radio | 102.1 Mhz |
| 4. | Araz FM | 94.1 Mhz |
| 5. | Azad Azərbaycan Radiosu | 90.1 Mhz |

Radio dinləyicilərindən radioqəbuledicilərini yenidən tənzimləmələri xahiş olunur.

***Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi***

İyunun 13-də Gənclər və İdman Nazirliyində tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov açaraq bildirib ki, muxtar respublikada

## Ekstremal idman növlərinin inkişafı üçün ardıcıl tədbirlər həyata keçiriləcək

bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülüb. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclər bütün idman növlərinə maraq göstərirlər.



Qeyd olunub ki, muxtar respublikada 12 idman federasiyası fəaliyyət göstərir. Bu federasiyalar da artıq öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qurub. Federasiyaların tərkibində 40 minə yaxın gənc idmanla məşğul olur. Təkcə bu ilin ötən dövrü ərzində idmançılarımız istər muxtar respublika, istərsə də beynəlxalq əhəmiyyətli yarışlarda yüksək nəticələr göstərib, 240-a yaxın medal qazanıblar.

Azad Cabbarov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər naziri təyin olunmuş Mayis Əliyev həm də Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasına yeni sədr təyin edilib.

Yeni təyin olunan federasiya sədri çıxış edərək qeyd edib ki, muxtar respublikada ekstremal idman növlərinin inkişafı üçün əlverişli təbii şərait mövcuddur. Həmçinin yeni quraşdırılan avadanlıqlar da gənclərin bu idman növlərinə cəlb olunmasına imkan verir. O, Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının bundan sonrakı fəaliyyətini günün tələbləri səviyyəsində quracağını, federasiyaya gənclərin cəlb edilməsi işinə daha diqqətlə yanaşacağını bildirib.

Daha sonra “Qapıcıq” İdman Klubunun sədri Aydın Hüseynov və “İlandağ” İdman Klubunun sədri Kərəm Novruzov yeni təyin olunan federasiya sədrini təbrik edib, ona uğurlar arzulayıblar.

Tədbirə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurub.

## *“Heydər Əliyev kuboku”* turnirində ilk turun oyunları başa çatıb

***Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş futbol üzrə “Heydər Əliyev kuboku” turnirinə start verilib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Peşəkar Futbol Liqasının birgə təşkil etdiyi yarışda 4 komanda dairəvi sistem üzrə mübarizə aparır.

Yarışa start verilməmişdən öncə turnirdə idarəçilik edəcək hakimlər, eləcə də təşkilatçı qurumların rəhbərləri ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublika Stadionunda 3 gün davam edəcək futbol üzrə “Heydər Əliyev kuboku”nu idarə edəcək hakimlərə gəlincə, baş hakim funksiyasını İnqilab Məmmədov və Vüqar Həsənli yerinə yetirəcəklər. Baş hakimin köməkçiləri kimi isə İsgəndər Əliyev, Rza Məmmədov, Elşad Abdullayev, Müslüm Əliyev meydana çıxacaqlar. Oyunların hakim-inspektoru isə Rüfət Əliyevdir.

Turnirin artıq püşkatma mərasimi də keçirilib və reqlamentə əsasən yarışa 15 iyunda – Milli Qurtuluş Günündə yekun vurulacaq. Turnir zamanı ən çox xal toplayan komanda kuboka və qızıl medallara sahib çıxacaq. Yekunda 2 və daha artıq komandanın xalları bərabər olarsa, turnirin reqlamentinə əsasən qalib müəyyən ediləcək.

Artıq turnirdə ilk turun oyunları keçirilib. Belə ki, günün ilk görüşündə MOİK və “Şüvəlan” komandaları üz-üzə gəlib. “Şüvəlan” komandasının heyətində Azad Kərimov (avtoqol), Akif Tağıyev və Elvin Adışirinlinin qollarına “hərbçilər” yalnız Orxan Həsənovun penalti qolu ilə cavab verə biliblər – 3:1.

Günün ikinci görüşündə isə “Araz-Naxçıvan” və “Zaqatala” komandaları qarşılaşıb. Naxçıvan təmsilçisinin heyətində dubl edən Nurlan Novruzov komandasına qələbə qazandırıb – 2:1.

***Püşkatmaya əsasən turnirin oyun cədvəlini təqdim edirik.***

*14 iyun*

*Saat 11$^{00}$ “Şüvəlan” – “Araz-Naxçıvan”*

*Saat 17$^{30}$ MOİK – “Zaqatala”*

*15 iyun*

*Saat 11$^{00}$ “Zaqatala” – “Şüvəlan”*

*Saat 18$^{30}$ “Araz-Naxçıvan” – MOİK*

Qeyd edək ki, bütün görüşlər Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


### *İtmişdir*

Abbasova Səlbinaz Mehralı qızının adına olan 0200767332 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Quliyeva Gülsüm Hüseyn qızının adına olan 3412 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Yengicə kənd sakini Gülmalıyev Oktay Gülmalı oğlunun adına verilmiş JN-748[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 437**